# Qurbətdə Azərbaycan tipləri

Quzey və güney Azərbaycandan kənarda 1000.000-larla azərbaycanlı vətəndaşımız yaşiyir. Bunlardan ancaq çox az bir qısmı Azərbaycanı düşünüb Azərbaycan taleyini özlərinə həyat tərzi seçiblər. Indi gəlin görək, Azərbaycani deyib Azerbaycan adına faaliyyət edən bu kəsim hansı tiplərdən təşkil tapır.

Demək bu səfərkı söhbətimizdə biz hər hansi bir azərbaycanlıdan söhbət aparmiyacayiq. Söhbətimiz ancaq, O azərbaycanlilardan gedir ki, istər fərdi şəkildə olsun vəya hər hansisa mədəni vəya siyasi təşkilatlar sıralarında olsun Azərbaycan amalını özləri üçün hədəf götürüblər. Və imkan daxılındə və əlbətdə başardıqları şəkildə faaliyyət aparır və vətənın səsını ucalqmağa çalışırlar. Ona görə yeri var kı, hər şeydən öncə, Azərbaycan naminə faaliyyət edən bütün milli faallara öz dərin minnətdarlığımızı bildirək.

Azərbaycan milli azadlıq hərəkatı, umimiyyətdə, o qədər qədim tarixə malik deyil. Onun başlanqıcı, vur-tut, 20 il bundan qabağa gedib çıxır. Demək, Azərbaycan milli azadlıq hərəkatı gənc bir hərəkatdır. Nəticətən təcrubəsizliklər, uğursuzluqlar, qusurlar və sayir problemlər hərəkatın təbii prosesı sayilabilər.

Milli azadlıq hərəkatı bir çox cəhətdən başqa insani faaliyyətlərn fərqlənir. Milli azadlıq hərəkatı hansısa dar çərçivəli bir ideoloqiya məhdud deyildir. Hakimiyyət uğrunda dava getmir. Təşkilatlar-arası rəqabətə yer yoxdur, vəya əslidə olmamalıdır. Milli azadlıq hərəkatı başqa ictimaii faaliyyətlərdən bir də onda fərqlənir ki, bu faaliyyətlər birgə əməkdaşlır tələb edir. Əks təqdirdə faaliyyətlər öz istənilən nəticəni əldə edəbilməz. Deməlı, milli azadlıq hərəkatı bir geniş, kütləvi və doğma hərəkatdır kı, onun sıralarında hər çeşıt insan cəmləşir və cəmləşməlıdir. Nəticə etibari ilə Azərbaycan milli azadlıq hərəkatı insansız təsəvvur ediləbilməz. Indi gəlin görək, qurbətdə yaşiyan və Azərbaycan naminə Azərbaycanın milli azadlıq hərəkatında iştirakı olan vətəndaşlarımız hansı tiplərdən ulaşır.

Aşağıda sıraladığım insan tipləri çeşit-çeşitdır. Biz bu tipləri bəlkə hərgün görürük, onlarla yaxından-uzaqdan təmasdayiq. Birgə faaliyyət edirik vəya etməyə çalışırıq. Azərbaycanın mənfəətləri uğrunda. Fərdı şəkildə vəya təşkilatlar içində. Bu tipləri şərh edərkən mən onların həm mənfi cəhətlərni və həm də musbət yanlarını nəzərdən qaçırmıram. Söhbətlərimdə qəzavət etməyə tələsmirəm, sadəcə gördüklərimi və hiss etdikərimi dilə gətirmişəm. Olabilsin ki, idrakimda səhvlər olsun, amma hər halı-karda qurbətdə yaşiyan Azərbaycan tiplərini biraz da olsa tanımış olacayiq. Gərçı mən inaniram kı, bu kimi tipləri hər kəs azma-çox tanıyir. Indi isə gəlin baxaq görək qurbətdə yaşiyan Azərbaycan tipləri neçə çeşitdır. Bəri başdan təkrarən vurğulayiram ki, adı çəkilən tiplər, doğrudan vəya yalaşdan, Azərbaycan məsələsi ilə marağlanan tiplərdı, bəs ona görə,  qurbətdə yaşiyan bütün vətəndaşları nəzərdə almamışam. Indi isə qurbətdə yaşiyan Azərbaycan tipləri:

1. Bu tip Azərbaycanlı özünün gördüyü faaliyyətləri haqlı və düz bilib başqalarının gördükərini heçə sayar. Özünün doğru yolda olduğuna zərəcə şək etməz, lakin obirlərini başdan-ayağa xəta bilər.
2. Başqa tip azərbaycanlılar tapılır ki, muəyyən bir faaliyyət aparar, lakin gözü yoldadır kı, onun faaliyyətlərnə qiymət versinlsin və ona əhsən desinlər, əksi-təqdirdə küsüb mubarizədən vaz geçər.
3. Bəzi Azərbaycanlı tiplər dünənə kimi iran adına farsların təşkilatlarında faaliyyət aparırkən, bircə dəfə olsun belə ağzını açıb o təşkilatlara və onlarin hədəf və əmmələrinə tənqıd və etiraz etməzdi, amma indi milli faallların cərgəsində hərkəsin səhvini tapmağa çalışır.
4. Başqa bir tip azərbaycanlı özgələrin faalliyyətlərini görməz. Öz faaliyyətini isə zırtbaşı dilə gətirrər.
5. Bu tip azərbaycanlı, hardasa və nəvaxtgsa, Azərbaycan üçün bir faaliyyət etmiş,. amma indi artıq faaliyyətlərini dayandırmışdır, Nəyə görə? Ona görə ki, zənnincə layiqincə qiymət almamış.
6. Başqa tip Azərbaycanlı, bütün həyatını Azərbaycana sərf edibdir. Yaşayişının hər anı Azərbaycandır. Yalnız Azərbaycanlılar olan yerlərə gedir və Azərbaycan adina tədbirlərə qatılır.
7. Bir tip azərbaycalı var kı, özündə heç bir qabliyyət yox, amma başqalarının qabliyyətini görüncə qısqanclıqdan havanı kirləməğə çalışır.
8. Bələ Azərbaycanlı tiplər var kı, iki üzlüdür. Farslarn tədbirlərində özünü iranlı, azərybanlıların içində isə özünü faal və azərbaycana canıyanan kimi aparır.
9. Bəzi tiplər var kı, özlərini çox bəyənərlər. Ona görə bu tiplər vəya tipsizlər öz başarısızlıqlarını gizlətmək üçün hansısa bir tədbirdə vəya toplantıda canı-deldən çalışan digər faal azərbaycanlını ortaya atıb onunla günah geçısı muamiləsi apararlar.
10. Bəzı Azərbaycanlılar çox səmimi və sədaqətlıdırlər, lakin danışmaqların bilməzlər. Ağıllarına gələni dilə gətirərələr.

11. Bəzıləri varkı, öz cəhalətlərinı gizlətmək üçün, yekə-yekə danışmağa başlarlar, amma bununla özləri daha da rusvay edərlər.
12. Bəzi azərbaycanlılar, hər xususda, hər yerdə öz fikir və rəylərini, söyləməyə çalışarlar. Söylədiklərinin möhtəvasına fikir verməzlər. Yəni ki, hərqah fikirlərini deməsələr çatdarlar, partlarlar.
13. Bəziləri avrupa demokratiyasini avrupalılardan da daha çox ifrat edərlər. Bun tiplər üçün Azərbaycan mənəfəti ikinci dərəcə əhəmiyyət kəsb edər.
14. Bəzi Azərbaycanlılar avrupalıların gözlərinə girmək üçün hətda öz doğma mədəniyyətini belə pisləməyə cəhd edərlər.
15. Bəzi Azərbaycanlılar, azərbaycan namınə faaliyyət edərlər. Başqaların münasibətlərinə məhəl qoymazlar. Bu tiplər əməl adamıdırlar.
16. Bəzi Azərbaycanlılar tapılır kı, adlarının çəkilmədiyi faaliyyətə qatılmazlar. Bunlar üçün milli təşkilatlar onların şöhrət qaynağıdır.
17. Bəzı azərbycanlılar özlərini xor görərlər və avrupalıları şişirdərlər.
18. Bəzı azərbaycanlılar avrupalıları özlərinə vəli-nemət sayarlar. Onların köpəyini belə doğmasından daha üstün görərlər.
19. Bəzi azərbaycanlılar "zırnanı tərsə tərəfdən çalaralar", belə kı, bir mədəni cəmiyyət yaradıb, Azərbaycan mədəniyyətini təbliğ etmək əvəzinə öz şəxsı ehtiraslarını təmin etməyə çalışarlar.
20. Bəzi tip Azərbaycanlılar var kı, mədəni bir cəmiyyət yaradıb, cəmiyyətı dərhal kluba çevirərlər.
21. Bəzı azərbaycanlılar var kı, "üzdən iraq" özlərində heç bir qeyrət yox, amma şimallı soydaşlarımızı bəyənməzlər, güneydən olan bir cəfənı adamı hətda şimalın ağıllısına tərcih edərlər. Belə tipsizlər də əfsus ki tapılır.
22. Öylə tiplər vəya tipsizlər var kı, başqa bir azərbaycanlıdan hörmətsizlik görəndə Azərbaycanı atırlar və hətda onu satırlar.
23. Bəzı azərbaycanlılar var kı, "pul olmasa heç bir faaliyyət olmaz" deyib durarlar. Əllərin ağdan qaraya da sürtməzlər. Dözə-dözə qocalib gedərlər.

24. Bəzı Azərbaycanlılar var kı, dostluğu hər şeydən üstün görərlər. Hətda o dostluq həqiqətə zidd olsa belə.
25. Bəzi azərbaycanlılar tapılır kı, internet vəya hər hansısa başqa bir toplantılarda bir azəri qız vəya bir azəri qadın görüncə bülbül kimi ötərlər. Sadəcə bu. Boş-boş.
26. Bəzi vətəndaşlar var ki, var-yoxlarını azərbaycan uğrunda qoyarkən, başqaları isə azərbaycanı özləri üçün şəxsı mənfəət qaynağı hesab edərlər.
27. Bəzı azərbaycanlılar rəyasət və qoltuq olmasa faaliyyətə girməzlər.
28. Bəzı Azərbaycanlılar tapılır kı, hər bildiyini dilə gətirməyə çalışar, yerinə və zamanına baxmadan. Yəni ki, vaxtsız xoruz kimi.
29. Bəzi azərbaycanlılar təmənnasız və minnətsiz mubarizə edərlər və həç nə ummazlar.
30. Bəzıləri var kı, tülkü kimi pusquda oturub özgələrin faaliyyətlərin öz adlarına yazmağa çalışarlar.
31. Bəziləri gedib qabliyyət və hünər öyrənmək yerinə, özgərləin qabliyyət və başarığını yerdən-yerə vurmağa çalışarlar.
32. Bəziləri həyat boyu ideallar peşində olarlar, lakin var olanları görməzlər.
33. Bəziləri dününə kimi iran adina farslarin təşkilatlarina çəkdiyi bütün zəhmətləri Azərbaycan faaliyyətləri kimi qələmə verərlər.
34. Bəziləri də var kı, geçmişdə, farslar üçün gördükləri işlərin hədər olduğunu etiraf etməkdən çəkinərlər. Nə var kı, o günlərin boşa keçdiyini etiraf etməkdən çəkinərlər.
35. Bəzi azərbaycanlılar var kı, ancaq təklikdən qaçmaq üçün Azərbaycana sarı üz tutarlar.
36. Bəzi azərbaycanlılar da var ki, avrupalıların həyat tərzini meymun kimi təqlid edərlər. “Hər şey və hər insan hərzaman və həran təp-təzə olmalıdır” deyib durarlar. Özləri isə 30-40 idlir ki, eyni fikirdədirlər, eyni təkrar həyatlari var, amma başqalarından yenilik gözlərlər.
37. Bəzi tiplər var ki, kiçiklərdən öyrənməyi özlərinə ar bilərlər.

38. Bəzi azərbaycanlılar da var kı, həqiqəti dosluqlara qurban verərlər, hətda dost cəfəng danışsa belə.
39. Bəzıləri farsların yanında fars, Azərbayanlıların yanında azərbaycanıdırlar.
40. Bəzıləri hər iki tərəfı razı salmaq üçün süfətsız qalmağı tərcih edərlər.
41. Bəzi azərbaycanlılar da var kı, “hazır aşın dik qaşığıdılar”, bu tiplər öz milləti üçün heç bir iş görməzlər, avrupalını yerdən göyə övərlər. Bu tiplər qanmazlar kı, avrupalıların bu dərəcə inkişafa çatması onun aydınlarının çəkdikəri zəhmətlər nəticəsində əməlı olmuşdur.
42. Bəzi azərbaycanlılar isə tapılır kı, azərbaycan üçün özlərin unudublar. Azərbaycan naminə həyatdan təcrid olublar. Öz dünyalarında yaşırlar.
43. Bəziləri də var ki, hər yerdə onlara xoşdursa, ora vətəndır deyib, doğma vətənı satarlar.
44. Belələri də tapılır kı, yalnız keyfləri saz olanda Azərbaycan yada düşür.
45. Elələri də var kı, yox yerdən imkan yaradıb və Azərbaycanı tanıtmaq üçün faaliyyət edərlər, əksinə bəziləri də var ki, imkanlar içində tənbəllik basib onları.
46. Bəzi vətəndaşlar var kı, “dırnaq arası” şəxsı problemlər ucəbatından hər faaliyyətdən əl üzübdür.
47. Bəzi azərbaycanlılar da tapılır ki, özgələrin ailələrini milli mubarizədə görmək istərlər, lakin öz ailəsini dünyadan təcrid ediblər.
48. Bəzi tip azərbaycanlılar tapılır ki, hətda biraz cüzi düşüncə fərqinə görə mənsub olduğu təşkilatdan küsüb gedir, başqa bir partiya vəya cəmiyyət yaradır. Və beləliklə hər azərbaycanlı sayisina görə təşkilatlarımızın da sayi get-gedə artır.
49. Bəzi azərbaycanlılar heç faaliyyət etməzlər, lakin azərbaycan tədbirərinə sadəcə adi bir iştirakçi kimi qatilmağı böyük bir faaliyyət hesab edərlər.
50. Belə azərbaycanlılar da tapılır ki, 10-15 il bundan qabaq Azərbaycan üçün bir kərə faaliyyət etmiş, və hala da o faaliyyət dilidən düşmür.

51. Bəzi azərbaycanlılar var kı, ildə bir vəya iki dəfə konsert təşkil etməyi Azərbaycan milli azadlıq hərəkatının ən önəmlı və bircə faaliyyəti hesab edərlər.
52. Bəzi azərbaycanlı tiplər tapılır kı, ər-arvad hər ikisi azərbaycanlı olsalar da belə, uşaqlarilə tabe olduqları məmləkətin dili ilə danışarlar.
53. Bəzı tiplərin vəya tipsizlərin yaşayışları və iş-peşələri yalnız mırt etməkdır. Bu tiplər özlərinin aşağı komplekslərini bu vasitə ilə gidərirlər.
54. Bəziləri sadəcə adda azərbaycanlı olduqlarını vətən üçün ən böyük xitmət hesab edərlər, millətə və xalqa da minnət qoyarlar.
55. Belə Azərbaycanlılar da tapılır kı, hardasa bir fars konsertində, bir səkinə dayqizi mahnısı eşidəndə, bunu azərbaycana sempatik hesab edərlər. Bu tipsizlər, təbir cayizsə, azərbaycanı bir gözəl yamaq kimi təsəvvur edərlər.
56. Bəzi tip Azərbaycanlılar var kı, “kor tutduğun biraxmadığı kim” yapışıblar komunizmin ətəyindən hələ biraxmaq istəməzlər.
57. Bəzi tip azərbaycanlılar da tapılır ki, xaricilər önündə quzu kimi durarlar, amma öz vətəndaşı vəya soydaşlıarı qarşısında xoruz kimi çığır-bağır edərlər.
58. Bəzi tip vətəndaşlar var kı, azərbaycana maddı yardim edildiyi zaman, verdikərini gözə soxarlar.
59. Bəziləri də tapılır kı, tabe olduqları məmləkətin (avrup) mənfəətləri üçün yerlilərdən daha çox çabalarlar. Onların bayraqlarını Azərbaycan bayraqlarından daha çox əziz tutarlar.
60. Bəzı Azərbaycan tipləri tapılır kı, qısqancılıq heykəlidilər.
61. Bəzi tipsizlər də tapılır kı, öz millətinin qabliyyətlərni və nailiyyətlərni görməzlər və başqa millətlərin başarılarını çığırıb bağırarlar.
62. Bəzi Azərbaycan tipləri var kı, burunlarindan qabağı görəbilməzlər.düşünməyi əzabı-əlim bilərlər.

63. Beləleri də var kı, həddindən artıq sadəlövh vəya nəivdilər. Belə ki, hadisələrin arxasında olan planları görməzlər. Dərhal nəticə çıxararlar və əsassız arqumanlar gətirərlər.
64. Bəzi Azərbaycan tipləri çox marağlıdırlar. Tutu-quşu kimidilər. Avrupalıların dediklərini eynən təkrar edərlər. Düşünmədən. Salıb-çıxmadan. Fikir yürütmədən.
65. Bəzi Azərbaycan tipləri tapılır kı, həyatboyu biryönlü baxıblar. Məslələrin başqa cəhətlərinin də olabildiyini nəbilərlər və nə də bilməyə cəhd edərlər. Perespektivin ancaq sözünü bilərlər, mənasini heç başa düşməzlər.
66. Elə Azərbaycanlılar tapılır kı, öz milləti üçün yalnız arazularla yaşayarlar. O arzuları həyata keçirmək üçün heç bir addım da atmazlar. Səfeh-səfeh durub gözlərlər.
67. Belə tip Azərbaycanlılar da var kı, dəvamlı hərkəsi qınarlar, amma özlərinın qınamaq vaxtı çatanda ağız büzərlər.
68. Bəzi tipsizlər də tapılır kı, öz doğma millətindən olan həyat yoldaşına külə kimi davranar, lakin xarici millətdən olan eşinə isə şahzadə kimi rəftar edər.
69. Bəzi Azərbaycan tipləri ömür böyü höviyyət peşində qaçır, höviyyət deyib durur, nə zaman işə və faaliyyətə girəcəyi isə məlum deyildir. Son qərarını hələ verməyib.
70. Bəzi elə azərbaycan tipləri tapılır kı, kitabsız düşünəməz. Öz ağlını qullanmaz və fikir yürütməkdən çəkinər.
71. Öylə azərbaycanlılar da var kı,  toplantılarda sözü “söz olsun torba dolsun” deyə danışar. Demokratiyadir deyib öz haqqını istifadə etmək istərkən səfeh-səfeh danişmağa başlar. Buda demokratiyanın afətlərindən.
72. Bəzı azərbaycanlılara hələ də məqam, status və geyimin əhəmiyyəti hər şeydən çoxdur. Söylənənə fikir verməzlər. Kim deyir bunlar üçün daha önəmlidir.
73. Hələ də bəzi Azərbaycanlılar tapılır kı, dünyanın ən son kosmopolitidilər. Başqa deyişlə, dünyanın ən son kospmololiti bəzı Azərbaycanlılardır. Yəni ki,

hər kəs öz millətinin mənfəətləri uğrunda çalışırkən, bəzi bizimkilər hələ dünyanı qurtamaq peşindədilər. Və bu yolda öz millətinin də xeyrinə qarşı çıxmağa hazırdılar. Bu yəni kosmopolit olmaq. Yəni şeytan-fəhləsı.

74. Bəzı Azərbaycanlı tiplər çox tez unutqandılar. Öyrəndikərni və görüklərin tez unudarlar. Səbəb isə tamahkarlıq, paxıllıqdan irəli gələndır.
75. “Bir kərə asimilə olan, həmişə asimilə olandır” dəyə bəzi azərbaycanlı tiplər dünənə kimi məntəqədə fars və rus kültürünə asimilə olduqları təcrübəsini indi isə avrupa ölkələrində əməli edirlər. Sanki bu tiplər asimilə olmaq üçün doğulublar.
76. Bəzi Azərbaycan tipləri öz millətinin qədir-qiymətini və tarixini bilməzlər. Ona görə yaşadıqları məmləkətin kültürünü ac qurd kimi udmağa çalışarlar. Höviyyətsizlikdən qaçmaq üçün başqa millətə (avrupa) yaltaqlığa başlarlar.
77. Bəzi tip Azərbaycanlılar oqədər tənbəldilər ki, hadisələrin nəticələrinə görüb səbəbını axtarmağa çalışmazlar.